# Azərbaycan Respublikasının
# Auditorlar Palatası

## Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə fəaliyyətinin yekunlarına dair Hesabat

*Məruzəçi: Səbuhi Gülməmmədov - Auditorlar Palatasının icraçı direktoru*

**BAKI - 2021**

SLAYD 1

# Auditorlar Palatasının hesabat dövrü ərzində gördüyü işlərin əsası

Auditorlar Palatası öz fəaliyyətində “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununu, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı”nı, “Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasını (2012-2020-ci illər)” və Auditorlar Palatasının 2020-ci il üzrə iş planını rəhbər tutaraq hesabat dövrü ərzində xeyli işlər görülmüşdür.

# Auditorlar Palatasının hesabat dövrü ərzində nəzərdə tutduğu tədbirlərin statistikası

2020-ci il üzrə iş planı üzrə – 63

2020-ci il üzrə Plan-proqram üzrə – 11 (68 tədbir)

O cümlədən,

I. Auditin təşkili və tənzimlənməsi bölməsi üzrə - 17 tədbir və 5 plan-proqram;

II. Beynəlxalq Audit Standartlarının tətbiqi üzrə - 1 tədbir;

III. Keyfiyyətə nəzarət, etika və şəffaflığın təminatı üzrə - 5 tədbir;

IV. Kadr hazırlığı üzrə - 9 tədbir və 2 plan-proqram;

V.Beynəlxalq əlaqələr üzrə - 7 tədbir və 2 plan-proqram;

VI. Nəşrlər, konfranslar və seminarlar üzrə - 9 tədbir və 1 plan-proqram;

VII. İnformasiya təminatı üzrə - 5 tədbir;

VIII. Palatadaxili tənzimləmə üzrə - 10 tədbir.

SLAYD 3

# Auditorlar Palatasının 2020-ci il üzrə iş planında nəzərdə tutulmuş bəzi əsas işlərin hesabat dövründə icrası

**1.1.1-ci "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər üzrə) hazırlanması";**

**1.1.2-ci "Azərbaycan Respublikasının Vergi və Mülki Məcəllələrinə, digər qanunvericilik aktlarına dəyişikliklərin layihəsinin hazırlanması və müvafiq qaydada təqdim edilməsi";**

**1.2-ci "Auditor fəaliyyəti ilə əlaqədar təlimatlar, tövsiyələr, metodik göstəriş və şərhlərin hazırlanması":**

**- "Haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təlimatın hazırlanması"**

**- "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyə auditorlar tərəfindən riayət edilməsinin monitorinqinə dair təlimatın hazırlanması"**

**- "Auditor xidmətlərinin genişləndirilməsi ilə bağlı tövsiyələrin hazırlanması"**

**- "Kölgə iqtisadiyyatının həcminin ölçülməsi üzrə metodik vəsait"**

SLAYD 4

# Davamı

1.3-cü “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinin tətbiqinin monitorinqi”;

1.4-cü və 1.6-cı “Auditor təşkilatlarının və sərbəst auditorların 2019-cu il üzrə və 2020-ci ilin I yarımilliyi üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması”;

1.5-ci “2019-cu ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi”;

1.7-ci “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə auditlərin aparılması” – ötən il ərzində 17 Sərəncam icra edilmişdir;

1.8-ci “Auditorun şəxsi kabineti sisteminin tətbiq edilməsi”:

- Auditorun şəxsi kabineti sistemi e-audit.gov.az domenində yerləşdirildi və istifadəyə verildi;
- Auditorlar Palatasının yeni yaradılmış rəsmi internet səhifəsinin gov.az serverində yerləşdirildi və auditorun şəxsi kabineti sistemi həmin internet səhifəyə inteqrasiya edildi;
- Sonda isə Auditorlar Palatasının yeni yaradılmış rəsmi internet səhifəsinin (audit.gov.az) və auditorun şəxsi kabineti sisteminin (e-audit.gov.az) Palatanın üzvlərinin, KİV-in və digər maraqlı tərəflərin iştirakı ilə 2020-ci il 30 aprel tarixində onlayn təqdimat mərasimi keçirildi. Təqdimatda auditor təşkilatlarının nümayəndələri və sərbəst auditorlardan ibarət 56 nümayəndə iştirak etmişdir;

SLAYD 5

# Davamı

- Auditorun şəxsi kabineti sisteminin tətbiqinə dair təlimat hazırlandı və pdf formasında şəxsi kabinet sisteminin müvafiq bölməsində yerləşdirildi;
- Auditrorlar Palatasının üzvü olan auditor təşkilatlarının və sərbəst auditorların auditorun şəxsi kabineti sistemində qeydiyyatdan keçmələri təmin edildi;
- Auditorun şəxsi kabineti sisteminin tətbiqinə dair silsilə 20-yə yaxın vebinar keçirilmişdir.

1.9-cu “Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməklik göstərilməsi”;

1.10-cu “2019-cu il üzrə auditdən keçməyən məcburi audit subyektlərinin müəyyən edilməsi və təsnifləşdirilməsi”;

1.13-cü “Auditn innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyada nəzərdə tutulan tədbirlərin tətbiqi”;

1.14-cü “Kölgə iqtisadiyyatının azaldılması üzrə Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin tətbiqi”;

1.16-cı “Auditorların və auditor təşkilatlarının müstəqillik qaydalarının hazırlanması”:
- Şura qərarına əsasən Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən auditor təşkilatlarına və sərbəst auditorlara 2020-ci il 01 avqust tarixindən “Auditorların müstəqillik qaydaları”nın öz fəaliyyətlərində tətbiq edilməsi tapşırıldı;
- “Auditorların müstəqillik qaydaları” kitab şəklində 300 nüsxədə nəşr etdirildi və auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılması təmin edildi;

# Davamı

- 2020-ci il oktyabrın 14-də Auditorlar Palatası tərəfindən beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış və nəşr olunmuş "Auditorların müstəqillik qaydaları» kitabının videokonfrans formatında təqdimat mərasimi keçirildi;
- "Auditorların müstəqillik qaydaları"nın tətbiqi barədə mövzu auditorların ixtisasartırma kurslarının tədris proqramına daxil edildi.

3.1-ci "2019-cu ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması";

3.3-cü "Daxil olmuş müraciət, ərizə və şikayətlər üzrə araşdırmaların aparılması" – ötən il ərzində Palataya 14 şikayət məktubları daxil olmuş və aidiyyatı üzrə cavablandırılması təmin edilmişdir;

3.4-cü "Milli layihələrin, dövlət proqramlarının, strategiyaların, fəaliyyət planlarının, fərmanların, sərəncamların, Azərbaycan Respublikası Prezidentinin və Birinci vitse-prezidentin tapşırıqlarının, tövsiyələrinin icrasının gedişi və nəticələri barədə məlumatların hazırlanması və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilməsi";

3.5-ci "Monitorinqdə iştirak edən digər şəxslərə münasibətdə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, eləcə də terrorçuluğun maliyyələşdirilməsi risklərinin qiymətləndirilməsi, müəyyən edilmiş risklərə uyğun olaraq həyata keçirilmiş nəzarət yoxlamaları barədə ətraflı məlumatın hazırlanması və Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməsi";

# Davamı

**4.1-ci "2020-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin layihəsinin hazırlanması";**

**4.2-ci "Auditorların ixtisasartırma kurslarının keçirilməsi";**
- 2020-ci il 07-24 sentyabr tarixində I, II və III qrup auditorlar üçün ixtisasartırma kursları keçirilmişdir. Bu kursun yekunu olaraq, 2020-ci il 24 sentyabr tarixində imtahan keçirilmişdir. 6 nəfər imtahandan müvəffəq bal toplamamışdır. İmtahanı müvəffəq balla bitirən auditorlara sertifikatlar hazırlanmış və təqdim edilmişdir.

- 2020-ci il 12-29 oktyabr tarixidə III, IV, V, VI və VII qrup auditorlar üçün növbəti ixtisasartırma kursları keçirilmişdir. Bu kursun yekunu olaraq, 2020-ci il 29 oktyabr tarixində imtahan keçirilmişdir. 7 nəfər imtahandan müvəffəq bal toplamamışdır. İmtahanı müvəffəq bitirən auditorlara sertifikatlar hazırlanmışdır.

**4.3-cü "Auditor adı almaq üçün imtahanların təşkil edilməsi"**

- 2020-ci ilin 30 iyul tarixində - 13 nəfər yeni müraciət etmiş namizəddən imtahanda 1 nəfər iştirak etməmiş, auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazənin müddəti bitən 1 nəfər iştirak etmiş və müvvəffəq bal toplamışdır.
- 2020-ci il 25 dekabr tarixində - 10 nəfər yeni müraciət etmiş namizəd, auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazənin müddəti bitən 2 nəfər imtahanda iştirak etmiş və müvvəffəq bal toplamışdır.

**4.6-cı "Auditorlar Palatasında ödənişli kursların təşkil edilməsi"**

- 2020-ci il il 08-30 dekabr tarixində "Daxili audit və daxili nəzarət" və "Daxili audit testləri və sübutların toplanması" proqramları üzrə Təlimlər vebinar formada keçirilmişdir. Təlimlərdə 12 nəfər iştirak etmişdir. Təlimlər 2020-ci il 30 dekabr tarixində başa çatmış və 2021-ci il 09-10 yanvar tarixlərində onlayn imtahanlar keçirilmişdir. İmtahanı müvəffəq vermiş şəxslərə sertifikatlar təqdim edilmişdir.

# Davamı

**SLAYD 8**

5.1-ci “Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi”;

5.2-ci “Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) üzvlük tələblərinin icrası ilə əlaqədar vəzifələrin yerinə yetirilməsinin təşkil edilməsi”;

- Palata tərəfindən nəşrləri, hər 2 qurumun üzvlük tələbləri ilə əlaqədar olaraq mütəmadi işlər, daxil olmuş sorğuların cavablandırılması, peşənin tənzimlənməsi ilə bağlı digər məsələlr.

5.3-cü “Beynəlxalq və xarici audit və mühasibat qurumları tərəfindən təşkil olunacaq konfranslarda, forumlarda, simpoziumlarda və digər tədbirlərdə Palata təmsilçilərinin iştirakının təmin edilməsi”;

- 2020-ci il ərzində təşkil olunmuş 15 tədbirlərdə Palata təmsilçilərinin iştirakı təmin olunmuşdur. Lakin dünyada yaranmış pandemiya ilə əlaqədar olaraq, bu dövr ərzində iştirakçıların tədbirlərdə iştirakı Beynəlxalq Əlaqələr Komitəsinin rəhbərliyi ilə onlayn şəkildə təşkil olunmuşdur.

5.5-ci “Xarici ölkələrin audit və mühasibat qurumları ilə əlaqələrin genişləndirilməsi” :

- Küveyt Mühasiblər və Auditorlar Assosiasiyasına, Pakistan Sertifikatlı Mühasiblər İnstitutuna, Pakistanın Xərc və İdarəetmə Mühasibləri İnstitutuna, Vyetnam Mühasiblər və Auditorlar Assosiasiyasına, İsrail Sertifikatlı Mühasiblər İnstitutuna (ICPAI), Hindistan Sertifikatlı Mühasiblər İnstitutuna, Milli Audit və Hesablar Akademiyasına (NAAA) əməkdaşlıqla bağlı məktublar hazırlanaraq göndərilmişdir. Bunlardan yalnız Hindistan Sertifikatlı Mühasiblər İnstitutundan və Pakistanın Xərc və İdarəetmə Mühasibləri İnstitutundan razılıq əldə olunmuşdur.

Yalnız Hindistan Sertifikatlı Mühasiblər İnstitutu (ICAI) ilə əməkdaşlığın imzalanması qərara alınmışdır. Auditorlar Palatası ilə Hindistanın İmtiyazlı Mühasiblər İnstitutu arasında anlaşma memorandumunun layihəsi hazırlanaraq imzalanması üçün həmin quruma göndərilmişdir. Layihə ICAI tərəfindən bəyənilmiş və təsdiq olunmuşdur. Hindistan Maliyyə Nazirliyindən razılıq alınması üçün ICAI tərəfindən Nazirliyə göndərilmişdir. Son olaraq Hindistanın İmtiyazlı Mühasiblər İnstitutu tərəfindən Auditorlar Palatasına göndərilən məktubda bildirilmişdir ki, Hindistanın qanunvericiliyinə uyğun olaraq Hindistanın Baş Naziri 4-6 ay ərzində bu memorandumun layihəsini təsdiq etməlidir.

## Davamı



- Rusiya Federasiyasının "Sodrujestvo" Özünü Tənzimləyən Auditor Təşkilatları Assosiasiyası tərəfindən Avrasiya regionu ölkələrinin peşəkar mühasibatlıq və audit qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsi, onların fəaliyyətlərinin koordinasiyası, mühasibatlıq və audit peşəsinə olan ictimai etimadın yüksəldilməsi məqsədilə "Avrasiya Mühasiblər və Auditorlar Assosiasiyasının" təsis edilməsi təklifini və Auditorlar Palatasına daxil olmuş həmin Assosiasiyanın nizamnaməsinin layihəsi 2020-ci il 10 noyabr tarixli Şura iclasında müzakirə edilərək qəbul edilmiş 323/7 nömrəli qərarla bəyənilmiş və Azərbaycan Respublikası Auditorlar Palatasının təsis ediləcək Avrasiya Mühasiblər və Auditorlar Assosiasiyasının üzvlüyünə qəbul edilməsi və onun təsisçilərindən biri olması məqsədəmüvafiq hesab edilmişdir.

6.1-ci "Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, "dəyirmi masa"ların və seminarların təşkilinin müvafiq struktur bölmələr ilə birgə həyata keçirilməsi";

- "Videokonfrans və videoseminarların, təşkil edilməsinə dair" - mart,
- "Auditorun şəxsi kabineti sisteminin tətbiqinə dair silsilə seminarlar barədə" - mart-aprel;
- "Haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təlimat barədə" - may;
- "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyə auditorlar tərəfindən riayət edilməsinin monitorinqinə dair təlimat barədə" - iyun;

SLAYD 10

# Davamı

- 2020-ci il 24 noyabr tarixində Azərbaycan İqtisadçılar İttifaqı və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə "Qələbəyə aparan yol: iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" mövzusunda onlayn elmi-praktik konfrans;

6.5-ci "Azərbaycan Respublikasının dövlət internet media-xəbər saytlarının, gündəlik qəzetlərin və TV kanalların izlənilməsinin təmin edilməsi və Palatanın rəhbərliyinin məlumatlandırılması";

6.7-ci "Auditə dair kitabların, dərs vəsaitlərinin, məlumat və təbliğat-təşviqat xarakterli kitabça, broşür, prospektlərin və digər materialların hazırlanmasının və nəşr etdirilməsinin təşkil edilməsi";

- "Telefon məlumat kitabçası"nın nəşri - 350 nüsxə;
- "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar Toplusu (2010-2020-ci illər) - 350 nüsxə.

Toplunun geniş auditoriya kütləsi üçün nəzərdə tutulan vəsait olduğu nəzərə alınaraq distant qaydada aidiyyatı qurumların və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə 2020-ci ilin 20 avqust tarixində təqdimat mərasimi keçirilmişdir.

7.1-ci "Auditor təşkilatları və sərbəst auditorlar haqqında məlumatların yenilənməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi";

7.2-ci "Auditorlar Palatası Şurasının qərarlarının, Palata sədrinin əmr və sərəncamlarının və digər sənədlərin Palatanın internet səhifəsində yerləşdirilməsi (zəruri hallarda ingilis və rus dillərində)";

# Davamı

SLAYD 11

**7.3-cü “IFAC, EFAA və digər beynəlxalq peşəkar qurumların yeniliklərinin öyrənilməsi, tərcümə edilməsi və zəruri hallarda Palatanın internet səhifəsində yerləşdirilməsi”;**

**- Belə ki, il ərzində Peşəkar qurumlar tərəfindən dərc olunmuş 23 bülleten və bütün xəbərlər Palatanın saytında yerləşdirilmişdir.**

**7.4-cü “Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin KİV-lər vasitəsilə müntəzəm məlumatlandırılması”:**

**- Tədbirlər, yerli və xarici - 14; Xəbərlər - 100; Mətbuat - 44; TV - 3; Seminar - Vebinar - 15; Elanlar - 34; AzərTac - 12; İnternet - 322; Şura qərarları, əmrlər, sərəncamlar və hesabatlar - 72.**

**- Facebook - 66 xəbər, Twitter - 9 xəbər, İnstagram - 53 xəbər, Youtube - 10 xəbər.**

- **Bütün bu görülən işlərlə yanaşı Palata sədrinin 2020-ci il 15 aprel tarixli 1/12 saylı Sərəncamı ilə təsdiq edilmiş “Pandemiyaya qarşı mübarizə və onun nəticələrinin aradan qaldırılmasına dair Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planı”na uyğun olaraq, həmin Tədbirlər Planında nəzərdə tutulmuş 25 bəndin icrası istiqamətində görülmüş bütün işlər ictimaiyyətə çatdırılması üçün KİV-lər vasitəsilə işıqlandırılmış, eyni zamanda Palatanın internet səhifəsində yerləşdirilmişdir.**

**- Bundan başqa il ərzində Palata tərəfindən hazırlanmış təlimatlar, tövsiyələr, metodik göstərişlər, şərhlərlə bərabər, eyni zamanda Palatanın və onun Şurasının iş planlarında, Palatanın iş planına əsasən tərtib edilmiş Plan-proqramlarda, Palata rəhbərliyinin əmrlərində, Sərəncamlarında və tapşırıqlarında icra olunan, təsdiq edilən və ictimaiyyətə çatdırılması zəruri hesab edilən materiallar istər Palatanın internet saytında, istərsə də sosial şəbəkələrdə yerləşdirilmişdir.**

## Davamı



**7.5-ci "Auditor xidməti" onlayn rejimli forum, interaktiv sual-cavab bölməsi, çat və digər əlaqələndirmə sistemlərinin tətbiq edilməsi":**

**- Palatanın 2020-ci il 12 mart tarixində istifadəyə verilmiş yenilənmiş "audit.gov.az" internet səhifəsində onlayn rejimdə işləyən çat sistemi qurulmuş və onun işlək fəaliyyəti təmin edilmişdir. Ötən il ərzində onlayn formada 19 müraciət daxil olmuş və müvafiq qaydada cavablandırılmışdır.**

**8.1-ci "Auditorlar Palatasında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına dair 1 və 2 nömrəli illik hesabat formalarının hazırlanıb təqdim edilməsi":**

**- 1 və 2 nömrəli illik hesabat formaları doldurulmuş və 2020-ci il 10 yanvar tarixində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilməsi təmin edilmişdir.**

**8.2-ci "Auditorlar Palatasının struktur bölmələrinin 2019-cu il üzrə iş fəaliyyətinin yekunlarına dair hesabatlarının hazırlanması";**

**8.3-cü "Auditorlar Palatasının 2019-cu il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması":**

**- Hesabat 50 nüsxə nəşr etdirilmiş və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Milli Məclisə, Nazirlər Kabinetinə və digər aidiyyatı qurumlara göndərilməsi təmin etdilmişdir.**

**- Hesabat Azərbaycan, ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilmiş və Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsi təmin edilmişdir.**

**- Hesabatın ictimaiyyətə açıqlaması üçün "İqtisadiyyat" qəzetində "Azərbaycan auditi-2019" mövzusunda geniş məqaləsi dərc etdirilmiş və həmin məqalə Palatanın internet səhifəsində yerləşdirilmişdir.**

# Davamı



8.4-cü “Auditorlar Palatasının 2019-cu il üzrə maliyyə hesabatlarının hazırlanması və onun auditinin təşkili”;

8.5-ci “Auditorlar Palatasında daxili auditin həyata keçirilməsi”;

8.7-ci “Auditorlar Palatasının struktur bölmələrinin 2020-ci il üzrə fəaliyyəti barədə rüblük hesabatların hazırlanması, onların təhlili və tövsiyələrinin verilməsi”;

8.8-ci “Auditorlar Palatasının üzvləri tərəfindən üzvlük haqqının vaxtında ödənilməsinin təşkili”;

8.9-cu “Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələr ilə birgə fəaliyyətin həyata keçirilməsi”:

Ötən il ərzində Palatanın Şurası yanında 9 komitə və 1 komissiya fəaliyyət göstərmişdir:
- Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitə (Sədr - Nəcəf Talıbov);
- Keyfiyyətə nəzarət üzrə komitə (Sədr - Vəli Kərimov);
- Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə komitə (Sədr - Namiq Abbaslı);
- Beynəlxalaq əlaqələr üzrə komitə (Sədr - Fəqan Qarayev);
- Auditor təşkilatlarının inkişafına dəstək üzrə komitə (Sədr - Zamin Hüseynov);
- Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitə (Sədr - Elçin Qurbanov);
- Şəffaflığın təminatı, demping və haqsız rəqabətə qarşı mübarizə üzrə komitə (Sədr - Üzeyir Fətiyev);
- Auditdə innovasiyaların tətbiqi və informasiya siyasəti üzrə komitə (Sədr - Yunis Salayev);
- Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə (Sədr - Abbasəli Qurbanov);
- Etika, mübahisələr və intizam komissiyası (Sədr - İbiş Əliyev).

# 2020-ci il üzrə İş planından çıxarılan və ya icrası növbəti ilə keçirilən işlər

- 1.12.-ci "Tənzimləyici təsirin təhlilinə dair illik planın hazırlanması və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunması" (Palata Şurasının 2020-ci il 20 may 320/5 saylı qərarı ilə iş planından çıxarılmışdır).

- 1.15-ci "Auditorların Peşə Etikası Məcəlləsinin hazırlanması" (Palata Şurasının 2020-ci il 25 sentyabr 322/4 saylı qərarı ilə iş planından çıxarılmışdır).

- 4.5-ci "Auditor təşkilatlarının əməkdaşları (assistentlər, mütəxəssislər) üçün ixtisasartırma kurslarının keçirilməsi" (2020-ci il 23 noyabr tarixli xidməti məktuba əsasən, 2021-ci ilə keçirilmiş).

- 4.7-ci "Azərbaycan Respublikasının Auditorlar Palatası ilə ACCA arasında imzalanmış Anlaşma Memorandumunda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi" (2020-ci il 12 iyun tarixli xidməti məktuba əsasən, plan-proqram üzrə işlərin davamı 2021-ci ilə keçirilmiş).

- 6.7-ci "Auditə dair kitabların, dərs vəsaitlərinin, məlumat və təbliğat-təşviqat xarakterli kitabça, broşür, prospektlərin və digər materialların hazırlanmasının və nəşr etdirilməsinin təşkil edilməsi" bəndinə dair plan-proqramın 2-ci "Auditorların Peşə Etika Məcəlləsinin nəşr etdirilməsi" (sentyabr) Şura qərarı ilə təxirə salınmışdır. 4-cü "Audit" dərs vəsaitinin hazırlanması" (dekabr) (Palata Şurasının 2020-ci il 26 noyabr 324/4 saylı qərarı 2021-ci ilə keçirilmiş).

# Palata Şurasının qərarlarının hesabat dövründə icrası

2020-ci il ərzində Auditorlar Palatası Şurasının 10 iclası keçirilmiş və 49 məsələ müzakirə edilərək müvafiq qərarlar qəbul edimişdir. Həmin Şura qərarlarında Auditorlar Palatasının Aparatına həvalə edilmiş işlər vaxtında və yüksək keyfiyyətlə icra edilmişdir:

O cümlədən, 21 fevral 2020-ci il tarixində (3 məsələ), 17 mart 2020-ci il  tarixində (4 məsələ), 24 aprel 2020-ci il tarixində (3 məsələ), 20 may 2020-ci il tarixində (5 məsələ), 29 iyun 2020-ci il tarixində (8 məsələ), 25 sentyabr 2020-ci il tarixində (4 məsələ), 10 noyabr 2020-ci il tarixində (7 məsələ), 26 noyabr 2020-ci il tarixində (4 məsələ), 7dekabr 2020-ci il tarixində (3 məsələ) 29 dekabr 2020-ci il (5 məsələ).

*SLAYD 16*

# Palata rəhbərliyinin əmr və sərəncamlarının hesabat dövründə icrası

**2020-ci il ərzində Palata Sədrinin 26 sərəncamı və 81 əmri (o cümlədən, 76 kadr əmri) olmuşdur. Palata sədrinin həmin sərəncamları və əmrləri ilə Auditorlar Palatasının Aparatına həvalə edilmiş işlər vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilmişdir.**

# Plandankənar tapşırıqların icrası

**2020-ci il ərzində ümumilikdə Palataya daxil olmuş 1200 plandankənar tapşırıq icra edilmişdir (o cümlədən, yerli və xarici).**

# Auditorlar Palatasının yardımları

**SLAYD 18**

**Koronavirusla Mübarizəyə Dəstək Fonduna könüllü olaraq yardım edən**
**Auditorlar Palatasının üzvlərinin**
**SİYAHISI**
**Auditorlar Palatası – 5000 manat**
**Auditorlar Palatasının  əməkdaşlarının əməkhaqqından – 7330 manat**

**Auditor təşkilatları**
**“ANR AUDİT” MMC (Abbaslı Namiq Rasim oğlu) – 2000 manat**
**"Audit Planning And Strategy" MMC – 307 manat**
**"Azəri Audit Servis" MMC – 100 manat**
**"Azəri Audit Audit Firması"  – 500 manat**
**"Baltik Kaspian Audit" MMC – 300 manat**
**"BAKI AUDİT KONSALTİNQ" MMC  – 50 manat**
**"BKR İşık Konsaltinq" MMC  – 300 manat**
**“CAPİTAL AUDİT” MMC (Vəlixanlı Ülkər Vəlixan qızı) – 500 manat**
**“Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.” şirkətinin Azərbaycan Respublikasındakı filialı (Vəliyev İlqar Əflatun oğlu) – 20000 manat**
**“FAIRNESS CONSALTING GROUP” MMC (Məmmədov Eldəniz Xosrov oğlu) - 1000 manat**
**“İDEOVATE CONSULTİNG” MMC (Namazova Nailə Abdulhüseyn qızı) – 500 manat**
**“L.B. Audit xidməti” MMC (Bayramova Lamiyə Qəşəm qızı) – 2500 manat**
**"Pricewaterhousecoopers" (PWC) Azerbaycan – 20000 manat**
**“Rahim Alizada Account Tax and Consulting” MMC (Əlizadə Rahim Ələkbər oğlu) – 1000 manat**
**“SMART AUDİT” MMC (Məmmədov Emil Nizami oğlu) – 500 manat**
**“TNM Audit” MMC (Talıbov Nəcəf Musa oğlu) – 2000 manat**
**“VXA-Audit” MMC (Qurbanov Elçin İbad oğlu) – 1000 manat**
**“Zaman – Audit” MMC (Cəbiyev Hüseyn Kommuna oğlu) – 100 manat**
**Sərbəst auditorlar və fiziki şəxslər**
**Aliyev Xaladdin Calal oğlu – 300 manat**
**Əliyev Elvin Elçin oğlu – 200 manat**
**Əliyev Natiq Firudin oğlu – 50 manat**
**Dadaşev Rişad Eynulla oğlu (auditor) – 1000 manat**
**İbrahimov Elnur Elxan oğlu - 200 manat**
**Kərimov Vəli Məmməd oğlu - 1000 manat**
**Rzayev Orxan Rza oğlu – 100 manat**
**Seyidov Elnur Sabir oğlu – 200 manat**

**Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbər işçiləri bir aylıq əmək haqqlarını Azərbaycan Silahlı Qüvvələrinin Yardım Fonduna köçürmüşdür.**

**Azərbaycan Respublikasının Auditorlar Palatası cəbhə bölgəsinə yardım paketləri göndərmişdir.**

**Azərbaycan Respublikasının Auditorlar Palatası cəbhə bölgəsinə növbəti dəfə yardım paketləri göndərmişdir.**

## Tədbirlər, vebinar-seminarlar, iclaslar, görüşlər

*SLAYD 20*

**17.01.2020 - 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş tədbir**






**24.01.2020 - Yeni üzvlüyə qəbul edilmiş şəxslərlə görüş**





**25.02 - 02.03. 2020 - "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi" mövzusunda silsilə seminarlar**





## 21.02.2020 - Auditorlar Palatası Şurasının iclası







21.02.2020-"L.B. Audit xidməti" MMC-nin direktoru Lamiyə Bayramova Romada Azərbaycan-İtaliya Biznes Forumunda



27.02.2020-Auditorlar Palatasının sədri, professor Vahid Novruzov AMEA İqtisadiyyat İnstitutunda keçirilən Azərbaycanda həyat keyfiyyətinin qiymətləndirilməsi üzrə tədqiqatlar təqdimatında




Moskvada dərc olunan beynəlxalq elmi-praktiki "AUDİT" jurnalının 2020-ci ilin I (yanvar) nömrəsində Azərbaycan auditinin əldə etdiyi uğurlar və qarşıda duran problemlər barədə Auditorlar Palatasının sədri, professor Vahid Novruzovla geniş müsahibə dərc olunmuşdur



AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

**Распоряжение Президента Азербайджанской Республики о награждении В.Т. Новрузова орденом «Шохрат»**






В гостях у редакции:
**Новрузов Вахид Тапдыг оглы.**

SLAYD 22

**14.04.2020 - “Pandemiya şəraitində auditor xidmətinin qarşısında duran problemlərin və vəzifələrin həllinə dair” vebinar**





**23.04.2020 -“Pandemiya şəraitində beynəlxalq təcrübə nəzərə alınmaqla auditin aparılması yolları”na dair növbəti vebinar**






**30.04.2020 - “Auditorun şəxsi kabineti sisteminin tətbiq edilməsi” vebinar**








## 06.05.2020 - “Auditorun şəxsi kabineti sisteminin tətbiq edilməsi” növbəti vebinar *SLAYD 23*





**08.08.2020 - “COVID-19 böhranı: Maliyyə hesabatları və audit üzrərindəki nəticələri” mövzusunda vebinar**




**15.05.2020 - Sərbəst auditor Əliyev Xaləddin Cəlal oğlunun 60 illik yubileyi**





20.05.2020 - Auditorlar Palatası Şurasının videokonfrans şəklində növbəti iclası **SLAYD 24**





29.05.2020 - Azərbaycan auditorları beynəlxalq videokonfransda iştirak ediblər







19.06.2020 – Auditorlar Palatasının nümayəndə heyəti Avrasiya regionu üzrə peşəkar audit və mühasibatlıq qurumlarının beynəlxalq videokonfransında







29.06.2020 - Auditorlar Palatası Şurasının videokonfrans şəklində növbəti iclası **SLAYD 25**





13.08.2020 - Kiçik və Orta Müəssisələr üçün Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) arasında videokonfrans formatında təşkil olunmuş iclas



10.11.2020 - Auditorlar Palatası Şurasının videokonfrans şəklində növbəti iclası







*Slayd 26*

**24.11.2020 - “Qələbəyə aparan yol: iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” mövzusunda elmi-praktik konfrans**





**11.12.2020 - YAP Səbail rayon təşkilatında Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş videokonfrans**





**30.07.-25.12.2020 - Auditorlar Palatasında auditor adı almaq üçün onlayn imtahanlar**



# Müraciətlər, Təbriklər, Teleqramlar

SLAYD 27

**16.03.2020 - Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarına və sərbəst auditorlara üzvlük haqqlarının yanvar-fevral aylarında ödədiklərinə görə təşəkkür məktubu göndərilmişdir.**

**08.04.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Pandemiya ilə əlaqədar  Palatanın üzvlərinə müraciət ünvanlamışdır.**

**31.07.2020 - Azərbyacan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Palatanın fəxri üzvü Nigar Rəhimovaya 80 illik yubileyi münasibətilə təbrik ünvanlamışdır.**

**09.10.2020 - Azərbyacan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov işğalçı Ermənistanın növbəti təxribatı ilə bağlı xarici həmkarlarına müraciət etmişdir.**

**18.10.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov "BDO AZƏRBAYCAN" MMC-nin kollektivinə 10 illik yubileyi münasibəti ilə təbrik ünvanlamışdır.**

**10.11.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, Zati-aliləri cənab İlham Əliyevə "Qələbə" münasibəti ilə Təbrik teleqramı ünvanlamışdır.**

**15.11.2020 - Özbəkistan Auditorlar Palatasının sədri Ravşan Xaydarov Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyini "Qələbə" münasibəti ilə təbrik etmişdir.**

**21.12.2020 – Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Palatanın üzvləri olan auditor təşkilatlarını və sərbəst auditorları  31 dekabr-Dünya Azərbaycanlıların Həmrəyliyi günü  münasibətilə təbrik etmişdir.**

**24.12.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov doğum  günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə Təbrik teleqramı göndərmişdir.**

# TƏLTİFLƏR

## V.T.Novruzovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında auditor xidməti sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Vahid Tapdıq oğlu Novruzov “Şöhrət” ordeni ilə təltif edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 6 yanvar 2020-ci il.

# DİQQƏTİNİZƏ GÖRƏ MİNNƏTDARIQ!

E-mail: audit-azerbaijan@audit.gov.az
website: www.audit.gov.az